# İkinci dünya müharibəsi iştirakçısı ziyarət edilmişdir



9 May – Faşizm Üzərində Qələbə Günü münasibətilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin əməkdaşları tərəfindən Qəbələ rayonu Bum qəsəbə sakini ikinci dünya müharibəsi iştirakçısı Ələmmədov Fətullah Səbzalı oğlu evlərində ziyarət edilərək, qiymətli hədiyyə təqdim olunmuşdur. Müharibə veteranı onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını bildirmişdir.

# Bahar doğumlu, bahar ömürlü



**Əfqan Ağasəf oğlu Adurahmanov** - 25 may 1976-cı ildə doğulmuşdur. Əslən Qəbələnin Əmirvan kəndindən olan Əfqan Bakıda doğulmuşdur. Azərbaycan ordusunun igid əsgəri Əfqan Abdurahmanov 2001 - 2020-ci illərdə hərbi qulluqçu kimi fəaliyyət göstərmişdir. Bu dövr ərzində 2016-cı ilin aprel döyüşlərində, Vətən Müharibəsində, Suqovuşan döyüşlərində, Tərtər istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 2020-ci ilin oktyabr ayının 10-da Tərtər uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Polkovnik-leytenant Əfqan Abdurahmanov rayonumuzun Əmirvan kəndində dəfn olunmuşdur.

Əfqan Abdurahmanov "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülmüşdür.



***Ağaşirin Firuz oğlu Babayev*** 16 may 2001-ci ildə rayonumuzun Qəmərvan kəndndə doğulmuşdur.

Ağaşirin Babayev 2019-cu ildə həqiqi hərbi xidmətə çağırılmışdır. 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazidərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən Müharibəsində iştirak etmişdir. O, Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə "Xocavəndin azad olunması", "Vətən uğrunda" medalları, "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

Ağaşirin Babayev 2020-ci ilin noyabr ayının 3-də Xocavənd uğrunda gedən döyüşlərdə aldığı qəlpə yarasından şəhid olmuşdur.



***Elməddin Məhəmməd oğlu Mustafayev*** 2001-ci il mayın 1-də Qəbələ şəhərində doğulmuşdur. O, iyulun 5-də (2019) həqiqi hərbi xidmətə çağırılmışdır. Müharibənin ilk günlərindən döyüşlərə qatılmışdır. Oktyabrın 10-da Füzuli rayonu istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.



***Coşqun Ənvər oğlu Bayramov*** 1991-ci il mayın 25-də rayonumuzun Qəmərvan kəndində doğulub. 44 günlük müharibə başlanan gündən döyüşlərə qatılan Coşqun Vətən Müharibəsində Tərtər istiqamətində gedən döyüşlər zamanı Suqovuşanın azad olunması uğrunda döyüşdə 8 oktyabrda şəhadətə qovuşmuşdur.

O, Qəmərvan kəndində dəfn olunmuşdur.

**Şəhla XƏLİLQIZI,**
**Qəbələ şəhəri.**

## *Heç kəs unudulmur*

# Hər insan dünyası sirli bir ada...

**Mən də şəhid anasıyam**

44 günlük müharibənin tarix yazan igidləri qədim Qəbələnin də adını dəfələrlə bu tarixə saldılar. Kimləri öz gənc ömrünü Vətənə, torpağa qurban verdi, kimlər də öz sağlamlıqlarını fəda etdi. Hər kəs kimi Qəbələ igidləri də igidlik şücaəti göstərərək 30 ilə yaxın bir dövrün narahat ruhlarının öcünü aldılar, şəhadətə qovuşdular, igid qazi adı alaraq, qalib bir ölkənin əsgərləri olaraq xalqımıza Zəfər sevinci yaşatdılar.



Şəhadətə qovuşanlar "Bayraq libas"la öz evinə qayıdarkən gəncəcik gəlinlər saçlarının rəngini tez ağardaraq üzündə qasırğa, tufan, gözlərində qan qara libasa büründülər, bir gecədə yaşlı bir qadına çevrildilər. Onlarla birgə tədbirlərdə - vətənin oğul dediyi, qayalarında mamır olub bitən Vətən oğullarının anım tədbirlərində 2 ananın baharömürlü qara - qış görüntülü anaların yanında dayanaraq göz yaşı axıtması və "yakqır-yakqır" yanması hər kəsin diqqətini cəlb edirdi.

İkinci Vətən müharibəsi qəhrəmanlarının analarından fərqlənən bu nurani sifət, yaşlı anaların "biz də şəhid anasıyıq, köhnə şəhidlərin anası..." deyərək yanğılı səslə ağlayaraq özlərini təqdim etdiyinin şahidi olmuşdum. Biri Gülcamal ana - vəndamlı şəhid Eldəniz Mehdiyevin anası idi. O biri qadının da: "Mənim balamın da unudulmasını istəmirəm, onu da ziyarətə gəlin!" deməsi qəlbimi ağrıtmışdı... Bu - Gülmayə ana idi.

**Dünya çiynində yüklü bir ana...**

Üzündə bir nur, gözlərində qəm dənizi var idi o ananın. Üzünə diqqətlə baxdıqca duman, çən arasından insanı cəlb edən nur seli hiss olunurdu. Mehriban danışığı, dilinin ağı dolu zümzüməsi səsinin ahəngindən bilinirdi. Ürkək baxışları, "günahkarlıq hissi" təsiri bağışlayan bir halı vardı. "Siz kimin, hansı şəhidin anasısınız?" - deyərkən yanağından süzülən göz yaşının onu necə qəlbindən titrətdiyini, yarasının təzələndiyini hiss etmək olurdu. "Mən I Qarabağ Müharibəsi şəhidi Ramizin anasıyam. Zəfər qazanılmasa da sənədlə, o müharibənin şəhidləri də qəhrəmanlıqla döyüşmüşdülər, həm də illərlə!.. Onların məzarları artıq köhnəlib, onlar yaddaşlarda köhnəlib. 30 ilə yaxın bir müddət o igidlərin bir çoxlarının adlarını belə unutdurub. Hansısa bir məktəblidən soruşduqda o şəhidlərin adlarını söyləyə bilmirsə, biz anaların qəlbi yanır. Axı o şəhidlər təkcə şəhid olduğu nəslin deyil, hər kəsin, xalqın şəhididir, narahat ruhlu şəhidi. Bu günkü nəsil 44 günlük Vətən müharibəsi şəhidləri onların qisasını alsa da, onlar da öz qanları, canları ilə bu torpağı Vətən edənlərdir".

Ananın hıçqırıq dolu həzin səsi, yanğılı göz yaşlarında da, hər bir şəhid məzarını ana istəyi ilə isitmək istəməsi, əzizləməsi, şəhid balasını onlara "qatıb" ağlamasının özündə də bir vüqar, qürur hiss olunurdu. Bu onun haqqı və ən ali tanıtımı idi. Axı o şəhid anası idi!

**Baharömürlü Ramiz**

Ramiz Əsgər oğlu Vahabov 1975-ci ilin avqust ayının 20-də Böyük Pirəli kəndində anadan olmuşdur. Ailədə 4 övlad - 2 bacı, 2 qardaş idilər. Ramiz ailənin 3-cü övladı idi. 1983-cü ildə kənddə orta məktəbin I sinfinə, 1985-ci ildə isə Qəbələ Rayon İncəsənət Məktəbinin tar şöbəsinə qəbul olmuşdur. 1992-ci ildə orta təhsilini başa vurduqdan sonra məşın ustası yanında sənət öyrənməyə başlayır. Ustası Yavər kişi ona maşın motoru yığmağı öyrədirdi. 1993-cü il oktyabrın 15-də onu həqiqi hərbi xidmətə çağırdılar. Ramiz əvvəlcə Sumqayıtda, Nasosluda hərbi xidmətə başladı. Andiçmə mərasimindən sonra onu Ağdama apardılar. O, hərbi təlimlərdə iştirak edir, döyüşlərə hazırlanırdı. Bildiyimz kimi, həmin dövr I Qarabağ Müharibəsinin ən qaynar vaxtları idi. Ramiz Vahabov Ağdam - Tərtər istiqamətində gedən döyüşlərə qatılır. Qolundan yaralanır və evə göndərilir. Yarası bir az sağaldıqdan sonra o, yenidən cəbhə bölgəsinə göndərilir.

Olduğu yerdən ailəsinə məktub yazardı, yazanda da "hər şey yaxşıdı, döyüşürük, Kürmahmudlu, Əhmədbəyli kəndləri istiqamətindəyik, hər şey yaxşı olacaq, çünki biz döyüşürük. Əsgərlərimiz igid kimi döyüşürlər" kimi inamlı sözlər yazardı.

Ailəni, xüsusilə anasını daha çox ağrıdan odur ki, ağır döyüşlər getdiyi üçün cəbhə bölgəsinə gedə bilməmiş, övladları ilə son dəfə görüşmək nəsib olmamışdı. 1994-cü ilin aprel ayının 19-u axşamı şəhid olmuşdu...

Onunla əlaqə saxlaya bilməyən, ona ölüm yozmayan ailə onu bir ay yarım Bakıdakı xəstəxanalardan axtarır. Naxçıvandakı xəstəxanaları axtarmaq istədikdə qohumları Əjdər Kərimov Ramizi axtarmaq üçün Füzuli bölgəsinə gedir, Ağdam, Füzuli istiqamətində axtarışlar edirlər. May ayında təkrar axtarış zamanı həkimlərdən biri bir şəhidi Beyləqana göndərdiklərini bildirir. Beyləqanlı bir şəhid valideyni Ramizi də öz övladı ilə birgə Beyləqana aparır və orada dəfn olunur. Mayın 20-də Ramizin atası və qohumları, Əjdər Kərimov Ramizin nəşini Beyləqandan öz doğma kəndinə gətirərək 21 mayda dəfn edirlər. Acılı ailə Ramizin öz kəndində dəfn olunmasından qismən rahatlıq tapsa da, gənc şəhidin acı taleyi, Ramizin nakam arzuları onların ürək yanğısına çevrilmişdi. Bu qədər ağır döyüşlərdən sonra ordu-



muzun zəfər çala bilməməsi isə o illərin yüzlərlə ailəsi kimi ən dərin ürək yanğısı idi.

Yaşasaydı Ramiz, bu günün bəlkə də gözəl musiqiçisi, bacarıqlı maşın ustası, neçə mütəxəssis kadrın, övladın atası, kəndin ən səviyyəli sakini olacaqdı.

**Şəhidlik ən ali rütbədir**

Şəhid adı ən böyük rütbə, ən uca zirvənin fatehi deməkdir. Döyüş yoldaşlarının xatirələri onun qəhrəmanlıq dolu gənc ömrünün tarixi xronikasıdır. Bu qəhrəmanlığın apaydın təcəssümü, ən böyük mükafatı, təltifi isə onun şəhid adıdır. Bir dəfə yaralanaraq yarası tam sağalmamış yenidən öz silahdaşlarının yanına qayıdaraq Vətən uğrunda döyüşən bir oğulun döyüşü də, şəhadətə qovuşması da onun Vətən qəhrəmanı olduğunun sübutu deyilmi?! Bax, belə oğulların anası qürur və vüqar təcəssümüdür, onların övladları heç vaxt unudulmamalıdır. Gülmayə ana gənc şəhidin anası olub və elə buna görə də bugünkü gəncömürlülərin - şəhidlərin hər birini ziyarət edir, öz övladı kimi sevir, yarım qalmış taleyinə yanır...

**Şəhidlər unudulmur**

Mayın 20-də Böyük Pirəli kənd məzarıstanında izdiham var idi. Rayonumuzun şəhid valideynləri, qazilər, döyüşçülər, idarə və müəssisə işçiləri, ictimaiyyət nümayəndələri Ramiz Vahabovun ziyarətinə gəlmişdilər. 29 il əvvəl öz elinə, kəndinə gətirilib dəfn olunmuşdu Ramiz... Oğlunun ziyarət olunması ananın qəlbini ovudurdu. Onun şəhid anası qürurunun təsdiqi idi bu tədbir. Onun ziyarət məclisində rayon rəhbərliyi də iştirak etmişdi. Bu tədbir şəhidlərin ölməzliyini bir daha təzahür etdirdi.

Məkanın cənnət olsun, şəhidim!

**Bibixanım İSAYEVA.**